39 (1294) 05-11 oktyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “AZƏRBAYCANDA KOSMİK SAHƏNİ İNKİŞAF ETDİRMƏYƏ DAVAM EDİRİK”




“Azərbaycan 10 ildən artıqdır ki, beynəlxalq kosmos klubunun üzvüdür. Bu gün bizim iki telekommunikasiya və bir Yer səthinin müşahidəsi peykimiz var”.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışında söyləyib.

Dövlətimizin başçısı bildirib: **“Biz bu sahəni Azərbaycanda inkişaf etdirməyə davam edirik”.**

## “AZƏRBAYCAN ETİBARLI TƏCHİZATÇI OLARAQ BEYNƏLXALQ BAZARLARA ENERJİ NƏQL EDİR”

“Bu gün enerji və nəqliyyat xəritələrinə baxsanız, o cümlədən boru kəmərlərinə nəzər salsanız, görəcəksiniz ki, burada Azərbaycanın izi var. Biz bir sıra layihələrin təşəbbüskarı olmuşuq və tərəfdaşlarımızla birlikdə onları uğurla həyata keçirmişik. Bununla da təkcə bizim bölgənin deyil, daha geniş regionun enerji təhlükəsizliyini təmin etmişik”.

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında söyləyib.

Bu gün enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyi məsələsinə bərabər olduğunu, onun vacib elementini təşkil etdiyini vurğulayan dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan etibarlı təchizatçı olaraq beynəlxalq bazarlara enerji nəql edir və Avropa İttifaqı tərəfindən PanAvropa təchizatçısı kimi dəyərləndirilir.

## “BU GÜN CƏNUBİ QAFQAZDA SÜLH DÖVRÜNƏ QƏDƏM QOYA BİLƏRİK”

“Bizim ərazi bütövlüyümüzü bərpa etmə təcrübəsi çox misilsiz və unikal bir hadisədir. Biz münaqişəyə son qoyduq. O münaqişənin həll edilməsi nəticəsində biz ləyaqətimizi qoruduq, beynəlxalq hüququ bərpa etdik”.

Bu barədə Prezident İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında bildirib.

**“Bu gün Cənubi Qafqazda sülh dövrünə qədəm qoya bilərik.**

**Bu, bizim fikrimizdir. Əməkdaşlıq, birgə mənfəət götürülməsi, qarşılıqlı fayda – bu gün biz bunların hamısını nümayiş etdiririk”,** - deyə dövlətimizin başçısı əlavə edib.

## “AZƏRBAYCANLI DOSTLARIMIZIN QARABAĞ ERMƏNİLƏRİNİN TƏHLÜKƏSİZLİYİ VƏ HÜQUQLARI BARƏDƏ BƏYANATLARINI DİQQƏTLƏ DİNLƏYİRİK”

Bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Ermənistan parlamentinin Roma statutunu ratifikasiya etməsini şərh edən Kremlin nümayəndəsi vurğulayıb ki, Rusiya Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunu ratifikasiya etməsini ikitərəfli münasibətlər baxımından düzgün adım hesab etmir. **“Əlbəttə, bizim Ermənistanın hazırkı rəhbərliyinə əlavə suallarımız olacaq. Onlar əvvəlcədən erməni tərəfinə çatdırılıb. Biz ən başından Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutuna qoşulmasının düzgün olmasına ikitərəfli münasibətlər nöqteyi-nəzərindən şübhə edirdik və indi də edirik. Əvvəllər olduğu kimi, hesab edirik ki, bu, yanlış qərardır,** - deyə D.Peskov bildirib. O bəyan edib ki, Ermənistanın Roma statutuna qoşulması Rusiya üçün qərarlar axtarılmasını tələb edir. **“Bizim müxtəlif səviyyələrdə daimi təmaslarımız var və bu mövzu ilə bağlı ciddi söhbətlərimiz olacaq. Bununla bağlı hansısa diplomatik həll yolları tapılmalıdır”,** - deyə Kremlin nümayəndəsi vurğulayıb.

## “BİZ QARABAĞDA VƏZİYYƏTİ SABİTLƏŞDİRMƏK ÜÇÜN AZƏRBAYCANLI HƏMKARLARIMIZLA İŞLƏYİRİK”

Bu barədə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov “Valday” beynəlxalq diskussiya klubunun XX illik iclası çərçivəsində jurnalistlərə bildirib.

Nazir qeyd edib ki, rusiyalı sülhməramlılar indiki vəziyyətdə əlindən gələni edirlər. **“Biz Qarabağdan Rusiyaya getmək istəyən insanları saxlaya bilmərik. Biz etimadın möhkəmləndirilməsi, ermənilərin və azərbaycanlıların normal birgə həyatının bərpası istiqamətində şəraitin yaradılması məqsədilə Qarabağda vəziyyəti sabitləşdirmək üçün azərbaycanlı həmkarlarımız və qonşularımız ilə işləyirik. Ümid edirik ki, İrəvan da bunda maraqlıdır və bu istiqamətdə səylər göstərəcək”,** - deyə Sergey Lavrov vurğulayıb.

**RF XİN başçısının sözlərinə görə, Ermənistanın bəzi rəhbərləri bildirirlər ki, Rusiya və KTMT-dən məyus olublar və indi “öz təhlükəsizliyini gücləndirmək üçün kənarda həmkarlar axtaracaqlar”.**

**“Bu, erməni rəhbərliyinin suveren seçimidir. Mən yenə də ümid edirəm ki, Rusiya xalqları, rus xalqı və Rusiyanın digər xalqları ilə erməni xalqı arasında əsrlər boyu mövcud olan əlaqələr heç bir müvəqqəti administrasiya tərəfindən pozula bilməz”,** - deyə o qeyd edib.



## “ASTRONAVTİKA KONQRESİ AZƏRBAYCANDA KOSMOS SƏNAYESİNİN VƏ APARICI TEXNOLOGİYALARIN İNKİŞAFINA TÖHFƏ VERƏCƏK”

“Bu gün Bakıda keçirilən Konqres Azərbaycanda kosmos sənayesinin, aparıcı texnologiyaların inkişafına və onun müasirləşdirilməsinə töhfə verəcəkdir”.

Bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında deyib.

Müasirləşmənin Azərbaycanın gələcəklə bağlı baxışlarını, gündəliyini və planlarını əks etdirdiyini vurğulayan dövlətimizin başçısı bildirib: ***“Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub, dostların qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə xidmət edib”.***

## “AVROPA İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIĞIMIZ UĞURLA İNKİŞAF EDİR”

“Eyni zamanda, Avropa İnstitutları ilə əməkdaşlığımız uğurla inkişaf edir. Avropa İttifaqının bir neçə üzvü ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb. Bu, onu nümayiş etdirir ki, bizim xarici siyasətimiz açıqdır, əməkdaşlığa yönəlib və daha geniş regional inkişafa xidmət edir”.

Bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında deyib. Azərbaycanın iki mühüm beynəlxalq təsisatın İƏT-in və Avropa Şurasının üzvü olduğunu xatırladan dövlətimizin başçısı vurğulayıb: **“Azərbaycan azsaylı ölkələrdən biridir ki, hər iki təsisatın üzvüdür. Bu iki vacib təşkilat 100-dən artıq ölkəni birləşdirir”.**

## “BİZ ŞƏHİDLƏR VERƏRƏK BMT-NİN QƏTNAMƏLƏRİNİN İCRASINI TƏMİN ETDİK”

“Üç il əvvəl biz əsas hədəfimizə nail olduq, 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğalın, etnik təmizləmənin qurbanı olmuşuq. Bu, bizim xalqımız üçün böyük faciə idi və böyük humanitar fəlakət idi. Biz uzun illər ərzində çalışırdıq ki, münaqişəni dinc yolla həll edək və işğala dinc yolla son qoyaq”.

Bu sözləri Prezident İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında söyləyib.

28 il ərzində danışıqlar prosesinə güclü sadiqliyimizi nümayiş etdirdiyimizi, lakin üç il əvvəl BMT-nin Nizamnaməsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə etdiyimizi vurğulayan dövlətimizin başçısı bildirib: **“Biz 3 il bundan əvvəl ərazilərimizi işğaldan azad etdik, işğala son qoyduq. Ötən ay isə bütün ölkə ərazisində suverenliyimizi tam bərpa etdik”.**

## PREZİDENT İLHAM ƏLİYEV ASTRONAVTİKA KONQRESİNDƏ AZƏRBAYCANIN İNKİŞAF GÖSTƏRİCİLƏRİ BARƏDƏ RƏQƏMLƏRİ AÇIQLAYIB

Prezident İlham Əliyev Astronavtika Konqresində Azərbaycanın inkişaf göstəriciləri barədə bəzi rəqəmləri açıqlayıb.

Son 20 ildə ümumi daxili məhsulumuzun 4 dəfə, büdcə gəlirimizin 30 dəfədən çox, xarici ticarət dövriyyəmizin 10 dəfə artdığını deyən dövlətimizin başçısı bildirib: **“Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. 2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik”.**

Ölkəmizdə sərmayə mühitinin çox müsbət olduğunu vurğulayan Prezident İlham Əliyev son 30 ildə Azərbaycana 300 milyard dollardan artıq vəsait qoyulduğunu deyib.

## “BİZ QAFQAZDA SÜLH VƏ SABİTLİK İSTƏYİRİK”

“Sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşsinlər və artıq sülh sazişinin layihəsi üzərində işləsinlər. Sentyabrın 20-də biz suverenliyimizi artıq bərpa etmişik. Bundan sonra sülh sazişinin tezliklə imzalanması daha asan olacaq”.




Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən “Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi” mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı söyləyib.

Bununla yanaşı, sərhədlərin delimitasiyası üzərində fəal şəkildə çalışmağın və uzun müddət sürən bu qarşıdurmaya son qoymağın əhəmiyyətini vurğulayan dövlətimizin başçısı qeyd edib: **“Azərbaycanda biz sülh istəyirik.**

**Zəngilanda bu gün gördükləriniz onu sübut edir ki, biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır”.**

# "Bu gün Şərqi Zəngəzur sıfırdan yenidən inşa edilir, bütün Qarabağ kimi"

Bu sözləri Zəngilanda keçirilən **"Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi"** mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev söyləyib. Şəhərsalma forumuna ümumilikdə 400 iştirakçının qatıldığını bildirən dövlətimizin başçısı deyib: **"Bu, bizim dostluğumuzun təzahürüdür, bizim birgə marağımızın təzahürüdür ki, işğal dövründə tamamilə dağıdılmış əraziləri yenidən inşa edək".**

# "Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik"

"Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik. Çünki onun coğrafi yerləşməsi bunu labüd edir".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı bildirib.

"Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir, ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası bu bölgənin inkişafı baxımından mühüm amil olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcək. Gələcəkdə isə əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaq. Çünki bu bölgə Azərbaycanın ən gözəl diyarlarındandır - meşələri, çayları, gölləri. Misilsiz ekosistemə malik olan Zəngilan bizim ən böyük sərvətlərimizdən biridir", - deyə dövlətimizin başçısı vurğulayıb.

# Bərpa işlərinə 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib

**"İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bərpa işlərinə Azərbaycan büdcəsindən bu günə qədər 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırdığımız minimum büdcə 2,4 milyard ABŞ dolları olacaq".** Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışında deyib.

Dövlətimizin başçısı Azərbaycanın bu işləri öz vəsaiti hesabına həyata keçirdiyini, heç bir maliyyə yardımı almadığını qeyd edib. Azərbaycan Prezidenti işğaldan azad olunan ərazilərdə Özbəkistanın orta məktəb, Qazaxıstanın isə yaradıcılıq mərkəzi inşa etdiyini xatırladıb.

# "Biz Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik"

"Biz Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ, reinteqrasiya ilə bağlı, onların hüquqlarına dair öz baxışımızı təqdim etmişik".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı deyib.

**"Dini, təhsil, mədəni, bələdiyyə hüquqları (Qarabağ ermənilərinin – red.) - bütün bu məsələlər beynəlxalq konvensiyalara uyğun olaraq həll ediləcək. Bunlar Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim Konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək"**, - deyə dövlətimizin başçısı vurğulayıb.

# Zəngilan rayonunun Alıbəyli kəndinin təməli qoyulub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda olub. Dövlətimizin başçısı Alıbəyli kəndinin təməlini qoyub.

Alıbəyli kəndi Həkəri çayının sahilində, Bərgüşad silsiləsinin ətəyində, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun üzərində yerləşir. İşğaldan azad olunmuş ərazilərin ümumi planına əsasən, Alıbəyli kəndi Birinci Alıbəyli, İkinci Alıbəyli, Sarıl və Xumarlı kəndləri ilə birlikdə layihələndirilir. Alıbəyli kəndində 2568 sakin üçün 498 fərdi evdən və 144 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin layihələndirilməsi nəzərdə tutulur. Birinci mərhələdə 772 sakin üçün 197 fərdi evin layihələndirilməsi və tikilməsi planlaşdırılır.

# Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi üzrə işlərə başlanılıb



Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı verilən müvafiq tapşırıqlar çərçivəsində Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağ iqtisadi rayonunda fəaliyyətə başlayıblar.

Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ilkin qeydiyyatına dair müraciətlərinin yerində qəbul edilməsi və bununla əlaqədar maarifləndirmə tədbirlərinin yerində təşkili, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları isə sakinlərin sosial-humanitar ehtiyaclarının müəyyənləşdirilməsi ilə bağlı fəaliyyət göstərirlər.

Dövlət orqanları əməkdaşlarının bölgədə fəaliyyəti Qarabağda yaşayan erməni sakinlərin yerli cəmiyyətə reinteqrasiyasının daha sürətli həyata keçirilməsinə, həmçinin sosial-humanitar ehtiyaclarının qarşılanmasında səmərəliliyin artırılmasına imkan yaradacaq.

# "Ağalı kəndinə həyat qayıdıb, orada sakinlər xoşbəxt yaşayırlar"

"Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsi idi ki, artıq keçmiş məcburi köçkünlər buraya evlərinə qayıdıblar. Ağalı ağıllı kəndinə həyat qayıdıb, orada sakinlər xoşbəxt yaşayırlar". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı deyib. Dövlətimizin başçısı bildirib: **"Mən şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə qədər bağlıdırlar. Heç vaxt öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu, onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır".**

# "Böyük Qayıdış Proqramının icrası bizim üçün bir nömrəli vəzifədir"

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı bildirib. Erməni işğalından əziyyət çəkən insanların çətin şəraitdə yaşadıqlarını, mənəvi çətinliklərlə üzləşdiklərini, öz haqlı hüquqlarından məhrum edildiklərini xatırladan dövlətimizin başçısı vurğulayıb: **"Onlar bu imkanı, bu fürsəti 30 il idi gözləyirdilər ki, buraya qayıda bilsinlər. İkinci Qarabağ müharibəsi, bizim şanlı Qələbəmizlə bitən müharibə bu şəraiti onlara yaratdı. Bu gün bizdən gözləntiləri odur ki, tezliklə onları buraya (azad edilmiş torpaqlara – red.) qaytaraq. Böyük Qayıdış Proqramının icrası artıq imkan verib ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə, Füzuli şəhərinə, Ağalı kəndinə, Talış və Zabux kəndlərinə qayıtsınlar".**

# "Horadizdən Zəngilana dəmir yolu tezliklə hazır olacaq"

"Bu gün Horadizdən Zəngilana dəmir yolunun inşası fəal fazadadır və nəqliyyat dəhlizinin bu mühüm hissəsi tezliklə hazır olacaq".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı bildirib. **"Bu, Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək layihədir. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət Avropaya çatacaq. Biz tezliklə bu layihəni istifadəyə verəcəyik. Yəni, Zəngilan çox vacib nəqliyyat mərkəzi olacaq"**, - deyə dövlətimizin başçısı əlavə edib.

# "Azərişıq" ASC-nin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirilib ki, Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasından qidalanır. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarəetməsini həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi elektrik enerjisinin real vaxt rejimində istehlakçıya çatdırılmasında abonent məmnunluğunu təmin edəcək.

# "AzərEnerji" ASC-nin "Cahangirbəyli" Su Elektrik Stansiyası istismara verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Cahangirbəyli" Su Elektrik Stansiyasının açılışında iştirak edib.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə yeni "yaşıl enerji" potensialının yaradılması ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2022-ci ilin payız aylarında "AzərEnerji" ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində dörd yerdə hər birinin gücü 10,5 meqavat, ümumi gücü 42 meqavat olan su elektrik stansiyaları (SES) silsiləsinin tikintisinə başlanılıb. Artıq "Sarıqışlaq", "Şayıflı" və "Zəngilan" SES-lərdə işlər yekunlaşmaqdadır, "Cahangirbəyli" SES-də isə işlər tamamlanıb.

Beləliklə, işğaldan azad edilən ərazilərdə tam yeni tikilən 4 stansiyadan ibarət "Zəngilan" su elektrik stansiyaları silsiləsində il ərzində 130 milyon kilovat-saatdan artıq "yaşıl enerji" istehsal ediləcək. Bu da alternativ enerji mənbələrinə keçiddə çox böyük rol oynamaqla, Prezident İlham Əliyevin regionu "Yaşıl enerji" zonasına çevirməklə bağlı tapşırığının icrasına mühüm töhfədir.

# Dövlət ehtiyatları sahəsində dövlətin vəzifələri müəyyən edilir

Bu barədə məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün iclasında müzakirəyə çıxarılan "Dövlət ehtiyatları haqqında" qanun layihəsində (birinci oxunuş) əksini tapıb.

Layihəyə əsasən, dövlət ehtiyatları sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

- strateji əhəmiyyətli malların siyahısını, istehlak bazarının həmin mallarla təmin edilməsi vəziyyəti baxımından qiymətlərin kəskin artması və azalması risklərini müəyyən etmək;
- strateji ehtiyatların və Azərbaycan Respublikasının mülki müdafiə tədbirləri çərçivəsində fövqəladə ehtiyatların tədarükünü, eləcə də təchizatçıların seçilməsini təmin etmək;
- strateji əhəmiyyətli malların (o cümlədən, bazar iştirakçıları tərəfindən təmin edilən malların) monitorinqini aparmaq;
- ölkənin ərzaq balansını tərtib etmək.



# "ARZUM AZƏRBAYCANI DÜNYANIN İNTELLEKT BAZARINDA LAYİQLİ YERDƏ GÖRMƏKDİR"

***Bu, rekviyem deyil, çünki Azad Mirzəcanzadə həmişə ürəklərdə yaşayacaq alimdir. Elmin, cəmiyyətin inkişafına və həyatın müxtəlif sahələrinə təsirinin nəticələri mühümdür. Cəmiyyətin bütün tarixi mərhələlərində elm inkişafın ən mühüm amili olmuş, tərəqqi meyarına, mənəvi həyatımızın müstəqil amilinə çevrilmişdir. Qədim Şərqdə toplanan biliklər elmin ilkin şərtlərinin hazırlanmasına, sonrakı inkişafda isə onun bir müstəqil sahə kimi formalaşmasına, cəmiyyətin zənginləşməsi prosesinə təkan vermişdir. Əsrlər ötdükcə elmi biliklər mifik təfəkkürü sarsıtmış, elmin artan gücü ilk elmi inqilablarla nəticələnmişdir. Zaman keçdikcə sosial sifarişin əsas təminatçısı olan elmin ayrı-ayrı məmləkətlərin, xalqların deyil, bütün bəşəriyyətin ümumi sərvəti kimi çıxış etməsi prosesi qanunauyğun hal almışdır.***

Azərbaycanda da elmin qədim tarixi vardır. İslam intibahının qərarlaşdığı orta əsrlərdə burada elmin inkişafını xarakterizə edən çox zəngin faktlar məlumdur. Min il öncə yaşamış Azərbaycan filosofu Əbülhəsən Bəhmənyarın "Səbəb və nəticə haqqında" təliminin müsəlman şərqində fəlsəfi-elmi fikrin inkişafında böyük rolu olmuşdur. Fazil Fəridətdin Şirvani, Xaqani, Fələki riyaziyyatla məşğul olmuş, Nizami, Nəsimi, Füzuli təbiətşünaslığın bir çox məsələlərinin əsaslı şərhini vermişlər. Nəsirəddin Tusi XIII əsrdə Marağa rəsədxanasını tikdirmiş, ulduzların dəqiq qlobusunu tərtib etmişdir. Etiraf edək ki, qədim elm tariximiz, onun o dövr üçün ensiklopedik biliyə malik olan mübariz şəxsiyyətlərinin xidmətləri zəif öyrənilmişdir. Bu boşluğu doldurmaq sahəsində cəsarətli addımlar atılmalıdır. XIX əsrdə A.A.Bakıxanovun, M.F.Axundovun əsərləri milli-elmi-fəlsəfi dünyagörüşünün yeni mərhələsi olmuşdur. Lakin XX əsrdən başlayaraq Azərbaycan elmi həm tarixi inkişaf nəticəsində, həm də ilk növbədə milli neft faktoru ilə bağlı olaraq daha yüksək status almış, yeni keyfiyyət dəyişiklikləri ilə müşayiət olunmuşdur. Bu əsrdə Azərbaycanda elmin əsas sahələri üzrə Elmlər Akademiyası yaradılmış, sahə elmi-tədqiqat institutları, ali məktəblər, elmi mərkəzlər intişar tapmış, alimlərimizin nəzəri və eksperimental xarakterli bir sıra tədqiqatları elmi zənginləşdirmişdir. Neft sənayesindəki istehsalat - elmi nailiyyətlərinə görə isə neçə-neçə onilliklər əvvəl Azərbaycan "Neft Akademiyası" kimi şöhrət qazanmışdır.

***Elm sahəsində əvəzsiz xidmətləri olan, ensiklopedik bilikli Azad Xəlil oğlu Mirzəcanzadə Azərbaycanın XX əsrdə yetişdirdiyi ən nadir zəka sahiblərindən biridir. Onun fəaliyyət dairəsi çox geniş və dinamikdir, hətta bir yazıda bu haqda ətraflı danışmaq qeyri-mümkündür.***

Əlbəttə o, ilk növbədə Azərbaycanın professional neftçi-alimidir. Azad müəllimin tətbiqi mexanika, neft-mədən işləri, neft-qazçıxarma istehsalının texnologiyası, neft-qaz yataqlarının işlənməsi sahəsindəki elmi tədqiqatları tanınmış alim və mütəxəssislərin birmənalı rəyinə görə dünya elminə mühüm töhfə sayılır.



Cəsarətlə demək olar ki, neft ehtiyatları və istehsalına görə dünyada mühüm yerlərdən birini tutmuş keçmiş Sovetlər İttifaqında neft elminin formalaşması və inkişafında Azərbaycan alimlərinin, xüsusilə Azad Mirzəcanzadənin xidmətləri çox böyükdür. Özünün yarım əsrdən çox elmi fəaliyyəti ərzində alimin digər, xüsusilə yeni elm sahələrindəki nailiyyətləri düşünən insanları heyran edir. O, təhsilə cəmiyyətin güclü faktoru kimi baxıb və onun reallaşması üçün intensiv fəaliyyət göstərib.

***Hər bir hadisənin ümumi və xüsusi komponentlərinə nüfuz etmək qabiliyyəti, prosesləri fiziki və riyazi anlamda qavrama xüsusiyyəti alimin təfəkkür tərzinə, istedad və zəkasına xas olan cəhətlərdən olmuşdur. Müşahidədə kiçik detalların əhəmiyyətinə varmaq, onların yarada biləcəyi effektləri müəyyən etmək, proseslərə fəlsəfi yanaşmaq müdrik alim-filosofun fəaliyyətinin səciyyəvi xüsusiyyətlərindəndir.***

Azad müəllim geniş analitik təfəkkürə, fenomenal yaddaşa və biliyə, ensiklopedik fitri istedada malik olan nadir alimlərdəndir. Onunla ünsiyyətdə olmaq müsahibindən nizamlı davranış, ciddi hazırlıq tələb edib. Azad müəllimdə biliyin, intellektin diapozonu o qədər geniş idi ki, istər-istəməz onun qüdrəti qarşısında özündən razılar da yumşalırdılar.

İndiki texniki inqilab şəraitində formalaşan vahid elm-texnika-istehsal sistemində elm öndə gedir. Elmlə mədəniyyət istedadla yanaşı, ciddi məsuliyyət tələb edir. Alimin elm və xalq qarşısında xidmətləri bitməz bir siyahını xatırladır. 70 monoqrafiya, dərslik və dərs vəsaiti, 400-dən çox elmi məqalə, 50-dən çox ixtira, 20-dən çox beynəlxalq seminar və konfransa rəhbərlik, 300-dən artıq elmlər namizədi, 100-dən çox elmlər doktorunun hazırlanması... İnsanın fiziki imkanlarının məhdudluğuna istinad edən bəzi bədxahlar bir nəfər tərəfindən bu qədər alimin yetişdirilməsinə şübhə ilə yanaşırdılar. Lakin diqqət etdikdə gördülər ki, əsas iş qayəsi səxavətlə ideyalar vermək olan alimin qazma, hasilat, yataqların işlənməsi, maye və qazların mexanikası sahəsində böyük elmi-təcrübi potensialından daha çoxsaylı tədqiqatçıya pay düşür. Həqiqətdə A.X.Mirzəcanzadə bundan da artıq alimlərin yetişməsində yardımçı olmuşdur. Onun elmin bir çox sahələri üzrə çalışan mütəxəssislərə, habelə gənclərə verdiyi tövsiyələr, oxuduğu maraqlı məruzələr bu baxımdan əvəzsiz bir xidmətdir.

Azad müəllim çox ağır və məsuliyyətli missiyanı - Elm və Texnika Komitəsinə, Ali Attestasiya Komitəsinə rəhbərliyi prinsipial iş metodu ilə, yüksək tələbkarlıqla həyata keçirib. O, daim axtarışda olub. Biganəlik ona yaddır. Azad müəllim həm də sərt adam kimi tanınmışdır, bu da təbiidir. Məqsədə müvəffəq olmaq məhz sərtlik, polad intizam, prinsipiallıq, dərin zəka vəhdətində mümkündür. Dövlətə, millətə təmənnasız xidmət Mirzəcanzadə elminin leytmotivini təşkil edir. Mədən sularından səmərəli istifadə etmək, neft sənayesini tullantısız sənayeyə çevirmək, daimi səmərəlilik



yaratmaq onun son dərəcə keyfiyyətli iş üsullarından xəbər verib. Bu xüsusiyyət onun çalışdığı bütün sahələrdə öz əksini tapıb. Rəhbərlik etdiyi Elm və Texnika Komitəsi büdcədən maliyyələşən bir təşkilat olsa da, yarandığı gündən dövlətə onun fəaliyyəti üçün ayrılmış maliyyə təsisatlarından bir neçə dəfə artıq vəsait qaytarmışdır. Lakin bütün bunlara baxmayaraq, Azad müəllim özünü xalqına əbədi borclu sanıb. Azad Mirzəcanzadə müstəqil Azərbaycan Respublikasının inkişafı üçün son dərəcə vacib olan Ali Attestasiya Komissiyasına rəhbərlik edib və mənə elə gəlir ki, onun fəaliyyətinin ən çətin, ən gərgin, əsəbi vaxtları da bu illərə düşüb. Çünki hələ də keyfiyyətsiz işlərə görə elmi ad almaq niyyətində olanlara havadarlıq etmək istəyənlər var. Azad müəllim bəzən adi etik qaydaları gözləməyən bu kimi "elm adamları" ilə ciddi mübarizə aparmağa məcbur olub.

***Hər bir materialda mühümü aramaq, duymaq, sonra isə onun yetərincə şərhini vermək lazımdır. Azad müəllim tədqiqatçılara, mütəxəssislərə, xüsusilə idarəetmə strukturlarında çalışanlara Roma klubunun "Qlobal düşün, lokal qərarlar qəbul et" prinsipinə uyğun düşünmə tərzini tövsiyə edib. Bu, daim millətinin gələcəyini düşünən alim-vətəndaşın narahatlığından irəli gəlib. Narahatdır ona görə ki, "Bazar hər şeyi həll edir" fikrini fetişləşdirənlər iqtisadiyyatımıza güclü dağıdıcı zərbə vururlar. Narahatdır ona görə ki, keçid dövründə dövlətin tənzimləyici funksiyasını hələ də başa düşməyən məmurlar az deyildir. Narahatdır ona görə ki, inkişaf imkanlarından səmərəli istifadə olunmur, elmi qayğı lazımi səviyyədə deyildir.***

Bu və ya digər elmin predmetini düzgün müəyyən etmək çox çətin məsələdir. A.X.Mirzəcanzadə ilk dəfə olaraq Azərbaycanın neft sənayesinin keçid dövründəki istiqamətləri haqqında konseptual mülahizələr söyləmiş, perspektivləri riyazi modellər əsasında müəyyən etmiş, fundamental ideyalar irəli sürmüşdür. Alim böyük türk dünyasının artan qüdrətini, gerçəkləşən birliyini sezərək, türkdilli dövlətlərin və yarımdövlətlərin neft-qaz ehtiyatlarını, onların müvafiq sahədəki potensial imkanlarını araşdırmış, perspektivlərin elmi proqnozunu vermişdir. Əzəli türk torpaqları Sibir, Tatarıstan və Başqırdıstanın neft-qaz yataqlarının işlənməsi və istismarı, habelə burada çıxarılan neftin spesifik - "şıltaq" xüsusiyyətləri ilə bağlı problemlər alimin elmi yaradıcılığında geniş yer almışdır. A.X.Mirzəcanzadə Xəzərdə hasil edilən neft-qaz və kondensat yataqlarının işlənməsi, istismarının ən ümdə problemlərinə dair fundamental əsərlərin müəllifi kimi yaşayacaq.

***Böyük alimlər qeyri-adiliyi ilə fərqlənirlər. Mən neçə illər boyu bu nurlu sima ilə təmasda olmuşam, onun nə qədər sərt və eyni zamanda daha çox humanist olduğunu yaxşı bilirdim. Azad müəllimlə apardığım söhbətlərdə dəfələrlə müşahidə etmişəm ki, onun musiqimizə, folklorumuza baxışları yüksək milli kaloriti ilə fərqlənir. Tez-tez xalq mahnılarımızı zümzümə etməsinin, şerilər söyləməsinin, musiqimizin əsrarəngiz gözəlliklərindən söhbət açmasının şahidi olmuşam. Üzeyir bəyin, Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin musiqisini, simfonik əsərlərini dinləməkdən doymurdu. Fəxrlə deyirəm ki, biz istedadlı xalqıq və daha da möhtəşəm olmağa layiqik. Baxın, qərbin 300 ildə keçdiyi klassik musiqi sənəti yolunu böyük Üzeyir bəy "Leyli və Məcnun"dan "Koroğlu" operasına qədər keçmişdir. Q.Qarayevin simfoniyalarının dünya musiqisində xüsusi yeri vardır. Biz dünya mədəniyyətinə böyük dühalar - Nizami, Nəsimi, Füzuli kimi şair-filosoflar, Əbülhəsən Bəhmənyar, Nəsirəddin Tusi kimi alimlər bəxş etmişik. Biz Sabirin, Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin, Səməd Vurğunun həmvətənlərimiz - Azərbaycan şairləri olmaqlarından qürur duymalıyıq.***

Azad müəllim istedadlı gənclərlə əməkdaşlıq etməkdən usanmır, onlara köməyini əsirgəmirdi. Bilirdi ki, Üzeyir bəy məktəbini davam etdirmədən, Nəsimi sözünü fəth etmədən, Füzuli sevgisini duymadan, Hüseyn Cavid fəlsəfəsini anlamadan, Əhməd Cavad vətənpərvərliyini bilmədən, Q.Qarayevin musiqi dünyasını dərk etmədən, Müşfiq şeirinin ruhunu sevmədən xalqın milli dirçəlişi, mədəni tərəqqisi mümkün deyildir.

Azad müəllim böyük vətəndaş olub. Xalqın maariflənməsində, əyalətlərdə ziyalılar nəslinin artırılmasında, elmin inkişaf etdirilməsində onun regional inkişaf konsepsiyası öz bəhrəsini verməkdədir. İndi respublika Ali Attestasiya Komissiyasının Gəncədə, Şəkidə, Lənkəranda, Naxçıvanda müdafiə şuraları fəaliyyət göstərir. Onun rəhbərliyi və şəxsi iştirakı ilə AAK sadalanan şəhərlərdə səyyar iclaslar keçirib. O, istəyib ki, Azərbaycanın regionları kompleks inkişaf etsin, bu proses tənzimlənsin, bölgələrimizdə yaşayan həmvətənlərin biliklərini zənginləşdirmək üçün elə yerlərdə də müvafiq şərait təmin olunsun, burada ziyalıların sayı artsın. Yerlərdə nə qədər çox zəka sahibi olarsa, mədəniyyətimiz, elmimiz də o qədər inkişaf tapar.

Çox strateji əhəmiyyət kəsb edən problemin bu aspektdə qoyuluşu hökumət səviyyəsində məqsədli proqramların, konsepsiyalarının işlənməsini zəruri edir. Azad müəllim daim narahat və mübariz insan olub, biganəlik, bitərəflik, mövqesizlik ona yad olub.

Onun elmi fəaliyyət sahəsində mükafatları olduqca çoxdur. Onları saymağa ehtiyac yoxdur. Fəqət bu mükafatlar içərisində alimə bir çox ölkələrdə, məşhur elmi mərkəzlərdə verilən yüksək mükafatlar vətənpərvərliyinə, dərin istedadına, vətəndaş qeyrətinə, müdrikliyinə verilən müstəqil Azərbaycanın ən ali mükafatı - "İstiqlal" ordeni onun simasını daha dolğun əks etdirir.

Azad Xəlil oğlu Mirzəcanzadə XX əsrin ən böyük azərbaycanlı alimlərindən biridir. Alimin keçdiyi həyat yoluna, möhtəşəm elmi fəaliyyətinə diqqət etdikdə, onun heyrətamiz təcrübə və biliyinin miqyası, əzəməti göz önünə gəlir. Böyük alimlər həmişə vaxt qıtlığı ilə bağlı problemlərlə rastlaşırlar. Azad müəllim topladığı təcrübə sahəsində zaman amilindən də səmərəli istifadə etməyə həmişə müvəffəq olub.

***Böyük alim Azad müəllimin əziz xatirəsi həmişə ürəklərdə yaşayacaqdır.***
***Allah rəhmət eləsin!***

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**

# Milli Məclis Rəqabət Məcəlləsini birinci oxunuşda qəbul edib



Milli Məclisdə müzakirəyə çıxarılan "Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Layihəni Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib.

Qeyd edək ki, Rəqabət Məcəlləsi 2006-cı ildə hazırlanaraq Milli Məclisə təqdim edilib. Qanun layihəsi iki oxunuşdan keçsə də, üçüncü oxunuşda müzakirəyə çıxarılmayıb.

Qanun layihəsi Milli Məclisin oktyabrın 2-dəki plenar iclasında müzakirə edilib və birinci oxunuşda səsverməyə qoyularaq qəbul olunub.

# "Azərbaycanda banklararası təminatsız bazarın həcmi 6 dəfə artıb"

"Bu il avqust ayına Azərbaycanda banklararası təminatsız bazarın həcmi ötən ilin sentyabr ayı ilə müqayisədə təxminən 6 dəfədən çox artaraq 787,5 milyon manatdan 4,9 milyard manata çatıb".

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov "Global Finance"a müsahibəsində deyib. O bildirib ki, banklararası təminatsız bazarın inkişafı Mərkəzi Bankın əsas prioritetlərindən olub: "Bu istiqamətdə 3 əsas məsələyə infrastrukturun inkişafı, iştirakçıların (bankların) bazarda fəallığının təşviq edilməsi və baza qısamüddətli faiz dərəcələrinin formalaşdırılmasına diqqət yetirdik. Hesab edirəm ki, bu sahədə çox şey




əldə etmişik. Bu, banklararası pul bazarının bu seqmentində böyük perspektivin olduğunu göstərir.

Bundan başqa, təminatsız bazar üçün qısamüddətli etalon faiz dərəcəsi kimi AZIR indeksi formalaşdırılıb. Buna paralel olaraq banklararası təminatlı bazar da inkişaf etdirilib və bu məqsədlə AINA indeksi formalaşdırılıb.

Son məqsədimiz qısamüddətli faiz dərəcələrini pul siyasəti dəhlizi daxilində idarə edərək, uzunmüddətli faiz dərəcələrinə təsir etməkdir".

# Германия - один из важнейших торговых и инвестиционных партнеров Азербайджана

Об этом сказал заместитель министра энергетики Азербайджана Эльнур Солтанов в ходе мероприятия, посвященного Дню объединения Германии. “Согласно официальной статистике, товарооборот между нашими странами за первые восемь месяцев 2023 года достиг почти 1,1 миллиарда долларов, что на 59 процентов




больше по сравнению с аналогичным периодом прошлого года. Германия входит в топ-10 стран по объему товарооборота с Азербайджаном”, - сказал он. Солтанов подчеркнул, что на сегодняшний день Германия инвестировала в Азербайджан 812,5 миллиона долларов, в то время как Азербайджан инвестировал в Германию 549,6 миллиона долларов.

# Фермерам Карабаха будут предоставлены субсидии

Фермерам Карабаха предоставляются субсидии, и они освобождаются от всех налогов, кроме земельного налога. Как сообщает в понедельник Trend, об этом говорится в распространенном заявлении Администрации Президента Азербайджанской Республики. “Вопросы собственности регулируются в соответствии с законодательством Азербайджанской Республики”, - говорится в заявлении Администрации.



# Денежная база в Азербайджане возросла

Денежная база в Азербайджане на 29 сентября 2023 года составила 17,896



миллиарда манатов, что на 10,8 процента, или 1,752 миллиарда манатов больше показателя аналогичного периода 2022 года. Согласно данным Центробанка Азербайджана, денежная база в отчетный период 2022 года превысила 16,144 миллиарда манатов. Отметим, что показатель денежной базы на начало октября текущего года на 1,2 процента, или 220,7 миллиона манатов меньше показателя на начало сентября 2023 года. Денежная база включает в себя наличные и обязательные банковские и обязательные резервы коммерческих банков, находящиеся в обращении.

# Прошел год со дня запуска IGB: названы объемы поставок

По Интерконнектору Греция-Болгария (IGB) за первый год его коммерческой эксплуатации было транспортировано более 16,4 миллиона МВтч газа, сообщили Trend в компании ICGB, которая является оператором трубопровода. IGB, который был введен в эксплуатацию 1 октября 2022 года, обеспечивает новый маршрут для безопасных и диверсифицированных поставок природного газа в Болгарию и регион Западных Балкан в целом. В настоящее время в IGB зарегистрировано 39 пользователей. Техническая мощность



газопровода составляет 3 миллиарда кубометров в год, причем большая часть его мощности уже зарезервирована на новый газовый год. В настоящее время интерконнектор обеспечивает примерно половину внутренних потребностей Болгарии в потреблении газа. IGB за короткое время превратился в ключевую инфраструктуру, которая также может обеспечить транспортировку природного газа в Молдову и Украину по Трансбалканскому газопроводу. ICGB недавно инициировал начало процедуры увеличения мощности для оценки рыночного спроса на увеличение мощности IGB до 5 миллиардов кубометров в год.

# Россия отреагировала на действия Армении



Россия считает народ Армении «братским», но к руководству этой страны у Москвы «есть вопросы», заявил журналистам пресс-секретарь Кремля Дмитрий Песков. Так он прокомментировал решение Еревана ратифицировать Римский статут Международного уголовного суда (МУС). «Армения - это дружественное нам государство, наш партнер. И, безусловно, нас многое объединяет с братским армянским народом. И у нас нет сомнений, что будет объединять навсегда. Но при этом, конечно, к действующему руководству Армении у нас появятся дополнительные вопросы. Они были заранее переданы армянской стороне», - сказал Песков. Кремль считает ратификацию Арменией Римского статута «некорректным шагом с точки зрения двусторонних отношений», отметил он.

# В Карабахе обеспечивается полный ввод в обращение национальной валюты Азербайджана

В рамках реинтеграции армянских жителей, проживающих в Карабахском регионе Азербайджана, обеспечивается полный ввод в обращение национальной валюты Азербайджанской Республики. Информацию об этом распространила Администрация Президента Азербайджанской Республики. “Осуществляются меры поддержки предпринимательской деятельности, осуществляемой на территориях проживания жителей. Льготные кредиты, субсидирование процентов, предоставление гарантий по кредитам и другие финансовые инструменты, применяемые в стране в связи с расширением доступа субъектов предпринимательства к финансам,



распространяются на территории, где проживают жители. Фермерам предоставляются субсидии, и они освобождаются от всех налогов, кроме земельного налога. Вопросы собственности регулируются в соответствии с законодательством Азербайджанской Республики”, - говорится в сообщении. Азербайджанская Республика приступила к практической деятельности по реинтеграции армянских жителей, проживающих в Карабахском регионе. В связи с этим Рамин Мамедов, назначенный ответственным за контакты с армянскими жителями Карабаха, 21, 25 и 29 сентября 2023 года встретился в городах Евлах и Ходжалы с представителями армянских жителей.

# Обнародован объем электроэнергии, выработанной ГЭС “Суговушан”

С начала возобновления работы и по первое октября 2023 года на малых гидроэлектростанциях деривационного типа “Суговушан-1” и “Суговушан-2” на реке Тертер выработано в общей сложности 21,8 миллиона кВтч электроэнергии. Согласно данным министерства энергетики Азербайджана, 3 октября 2021 года состоялось открытие этих станций. Отметим, что “Суговушан-1” состоит из 3 гидроагрегатов общей мощностью 4,8 МВт и каждый мощностью 1,6 МВт, а “Суговушан-2” - из 3 гидроагрегатов общей мощностью 3 МВт, каждый мощностью 1 МВт. Напомним, что Азербайджан увеличил производство электроэнергии на 154,2 миллиона киловатт-часов в январе-августе 2023 года. В частности, выработка электроэнергии в Азербайджане в январе - августе текущего года составила 19,245 миллиарда киловатт-часов. В отчетном периоде 2023 года экспорт электроэнергии из Азербайджана составил 1,53 миллиарда киловатт-часов, в то время как импорт составил 169,3 миллиона киловатт-часов.

# В “Bayraktar Technology Azerbaijan” работают 20 азербайджанских инженеров

20 азербайджанских инженеров приступили к работе в компании “Bayraktar Technology Azerbaijan”. Об этом сказал технический директор турецкой компании “Baykar” Сельджук Байрактар в ходе пресс-конференции в рамках 74-го Международного конгресса астронавтики. “С целью производства беспилотных летательных аппаратов (БПЛА) и обучения был создан “Bayraktar Technology Azerbaijan”. Наша команда инженеров начала работать вместе с нашими братьями-азербайджанцами, которые приступили к разработке областей с большей интеграцией искусственного интеллекта и увеличением функциональности. В настоящее время 20 азербайджанских инженеров продолжают свою работу в этой области”, - сказал Байрактар. “Тем не менее у нас есть команды, которые будут работать и в других областях. Цифры, о которых идет речь, могут показаться вам маленькими,



но самая большая работа в мире была выполнена небольшими, но созданными на правильных основах командами. Когда-то и “Baykar” начинала работу с небольшой командой”, - подчеркнул С. Байрактар”.

# Парламент Армении ратифицировал Римский статут



Парламент Армении ратифицировал Римский статут Международного уголовного суда.

За ратификацию закона проголосовали 60 депутатов парламента Армении, против - 20. Оппозиционные фракции парламента заявили, что принятие документа не отвечает интересам страны и преследует политические цели. По их мнению, этот шаг властей ставит под угрозу союзнические отношения с Россией, что может иметь серьезные последствия для Армении. Некоторое время назад Министерство иностранных дел России предупредило о серьезном ущербе, которое нанесет двусторонним отношениям ратификация Римского статута в Армении и принятии официальной Москвой ответных мер.

# Azərbaycan auditi inkişafda

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatlar, o cümlədən sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatının azaldılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflığın təmin olunması istiqamətində müstəqil audit də özünəməxsus rol oynayır.***

Azərbaycan Respublikasının Auditorlar Palatası auditor xidməti bazarında şəffaflığın artırılması, haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılması və auditə ictimai etimadın gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir və öz səlahiyyətləri çərçivəsində həmin neqativ hallara qarşı mübarizəni müntəzəm olaraq davam etdirir.

Auditin inkişafını təmin edə biləcək konseptual amillərdən biri də bu sahədə idarəetmənin inzibati və iqtisadi mexanizmlərinin düzgün əlaqələndirilməsidir. Eyni zamanda, tənzimlənmənin etik mexanizminin daha geniş tətbiqinin reallaşdırılması istiqamətində də problemlər öz həllini tapmalıdır.

Müstəqil auditin normativ hüquqi bazasının beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, bütövlükdə maliyyə və vergi intizamının möhkəmləndirilməsi maliyyə vəsaitlərindən istifadə olunmasında hesabatlılıq və şəffaflığın daha da artırılması üçün böyük əhəmiyyət kəsb edir. Başqa sözlə, çirkli pulların yuyulmasına qarşı mübarizədə maliyyə hesabatlarının düzgün tərtib edilməsi və onun obyektiv qiymətləndirilməsi, qeyri-qanuni və şübhəli əməliyyatlara nəzarətin təmin edilməsi, maliyyə institutlarının fəaliyyətində şəffaflığın təmin edilməsi mühüm əhəmiyyət kəsb edir ki, bu işdə də auditin rolu və əhəmiyyəti çox böyükdür. Çirkli pulların yuyulmasına qarşı mübarizədə kənar (müstəqil) auditor yoxlaması və daxili auditin düzgün həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz müstəqil auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatlılığının mövcudluğu çirkli pulların yuyulmasına qarşı mübarizədə preventiv (qabaqlayıcı) xüsusiyyətli tədbir kimi dəyərləndirilir.

Son illər məcburi audit subyektləri olan obyektlərin auditdən keçmə hallarının artması, çirkli pulların yuyulmasına qarşı mübarizədə maliyyə hesabatlarının düzgün tərtib edilməsi və onun obyektiv qiymətləndirilməsi, qeyri-qanuni və şübhəli əməliyyatlara nəzarətin təmin edilməsi, maliyyə institutlarının fəaliyyətində şəffaflığın təmin edilməsi Azərbaycan iqtisadiyyatının inkişafını sürətləndirir və dayanıqlılığını təmin edir.

2023-cü ilin I yarımili üzrə 65 sərbəst auditor və 164 auditor təşkilatı tərəfindən Auditorlar Palatasına öz fəaliyyətlərinə dair hesabatlar təqdim edilmişdir. Təqdim edilmiş hesabatlara əsasən müəyyən edilmişdir ki, hesabat dövründə təsərrüfat subyektləri ilə 84,0 mln. manat məbləğində 4567 müqavilə bağlanmışdır. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə bağlanmış müqavilələrin sayı 4403-dən 4567-yə qədər, yəni 164 ədəd və ya 3,7% artmış, məbləği isə 68,0 mln. manatdan 84,0 mln. manata qədər, yəni 16,0 mln. manat və ya 23,5% artmışdır (*Cədvəl 1, diaqram 1, 2*).

**Qeyd etmək lazımdır ki, 2022-ci ilin I yarımilliyi ilə müqayisədə 2023-cü ilin I yarımilliyində yerinə yetirilmiş müqavilələrin sayı 2666-dan 3070-ə qədər, yəni 404 ədəd və ya 15%, məbləği 29.624.973,00 manatdan 40.817.631,00 manata qədər, yəni 11.192.658,00 manat və ya 38%, orta məbləği isə 11.112,00 manatdan 13.295,00 manata qədər, yəni 2183,00 manat və ya 20% artmışdır (cədvəl 2, diaqram 3, 4).**

Azərbaycan Respublikası ərazisində 2023-cü ilin I yarımillik hesabat dövrü ərzində 10 növ auditor xidməti və o cümlədən, Auditorlar Palatasının üzvləri tərəfindən 2 yeni auditor xidməti növü (iqtisadi əsaslandırmanın, biznes planın və digər layihələrin işlənib hazırlanması və hüquqi şəxslərin yaradılması məqsədi ilə təsis sənədlərinin işlənib hazırlanması) qeyd olunub. Oxucularımızın diqqətinə çatdırmaq istərdik ki, son illərdə ölkəmizdə möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi ilə aparılan iqtisadi islahatlar zamanı şəffaflığın artırılması, kölgə iqtisadiyyatına qarşı mübarizəyə ictimai nəzarətin gücləndirilməsi, hesabatlılığın təkmilləşdirilməsi istiqamətində aparılmış uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycan auditi ildən-ilə inkişaf edir və ölkə iqtisadiyyatının hərtərəfli inkişafına öz mühüm töhfəsini verir.



**Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi Vasif Cavadov**



**Auditin təşkili və təhlili şöbəsinin müdiri Nigar İsmayılova**

*Cədvəl 1*

| | 2022-ci il I yarımil | | 2023-cü il I yarımil | |
|---|---|---|---|---|
| **Auditorlar Palatasının üzvləri** | **Sayı** | **Məbləği** | **Sayı** | **Məbləği** |
| Böyük dördlük | **604** | **40.232.670,00** | **628** | **50.322.640,00** |
| Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları | **508** | **13.938.731,00** | **492** | **13.333.893,00** |
| Yerli auditor təşkilatları | **2218** | **11.457.189,00** | **2424** | **16.706.256,00** |
| Sərbəst auditorlar | **1073** | **2.787.865,00** | **1023** | **3.969.658,00** |
| **Cəmi** | **4403** | **68.416.455,00** | **4567** | **84.332.447,00** |

*Cədvəl 2*

| | 2022-ci ilin I yarımilliyi | | 2023-cü ilin I yarımilliyi | |
|---|---|---|---|---|
| **Auditorlar Palatasının üzvləri** | **Sayı** | **Məbləği** | **Sayı** | **Məbləği** |
| Böyük dördlük | **244** | **17.751.001,00** | **310** | **22.778.074,00** |
| Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları | **181** | **5.064.349,00** | **222** | **5.792.934,00** |
| Yerli auditor təşkilatları | **1430** | **4.806.190,00** | **1701** | **9.165.396,00** |
| Sərbəst auditorlar | **811** | **2.003.433,00** | **837** | **3.081.227,00** |
| **Cəmi** | **2666** | **29.624.973,00** | **3070** | **40.817.631,00** |

*Diaqram 1*

**Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin sayı**




*Diaqram 2.*

**Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin məbləğləri**




*Diaqram 3*

**Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin sayı**




*Diaqram 4.*

**Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin məbləği**




Auditor xidməti sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin institusional elementidir. Bu institusional element təhsil sistemi, yüksəkixtisaslı kadr hazırlığı, auditorların sertifikatlaşdırılması və davamlı təhsili, mülkiyyət formalarının və bazar münasibətlərinin müxtəlifliyi şəraitində auditor xidmətinin göstərilməsinin təşkilati formaları, auditin tənzimlənməsi, audit sahəsində qanunvericilik, beynəlxalq audit təcrübəsinin və müvafiq audit standartlarının tətbiqi, peşəkar xidmət təminatçılarının etika prinsiplərinə əməl olunmasının təmin edilməsi və digər məsələləri əhatə edir.

Audit və digər təminat məhsullarının həcminin genişləndirilməsi müasir çağırışlardan biri kimi dəyərləndirilməlidir.

Dələduzluq, korrupsiya, çirkli pulların yuyulması, vergidən yayınma, kölgə iqtisadiyyatı və digər qeyri-qanuni fəaliyyətlər ilə mübarizə, habelə idarəçiliyin təkmilləşdirilməsi, risklərin idarə edilməsi, şəffaflığın və hesabatvermənin yüksəldilməsi auditor peşəsinin ictimai maraqlar naminə xidmət göstərilməsi sahəsində əsas vəzifələri sırasında müəyyənləşdirilməlidir. Gələcəyə hazır olan auditor peşəsinin tənzimlənməsi, təşkili, idarə edilməsi yeni dövrün və gözlənilən dəyişikliklərin tələbləri nəzərə alınmaqla inkişaf etdirilməli, yüksək keyfiyyətli beynəlxalq standartların hazırlanmasında, qəbul edilməsində, həyata keçirilməsində və təşviqində milli auditin fəal iştirakına nail olunmalıdır.

Müasir şəraitdə auditin tənzimlənməsi ilə əlaqədar Auditorlar Palatası tərəfindən normativ-metodoloji bazanın yaradılması sahəsində bir çox işlər görülmüşdür. Hazırda həmin bazanın Palata tərəfindən müntəzəm olaraq yenilənməsi və müasirləşməsi prosesləri həyata keçirilir. Bu özünü Beynəlxalq Audit Standartlarının tətbiqində, auditin keyfiyyətinə nəzarətdə, kadr hazırlığında və digər istiqamətlərdə büruzə verir.

# "Şahdağ Xeyriyyə" İB xeyriyyə yönümlü təhsil layihəsinin icrasını davam etdirir

"Şahdağ Xeyriyyə" İB 15 sentyabr 2023-cü il tarixindən daxili imkanlar hesabına başladığı xeyriyyə yönümlü təhsil layihəsinin icrasını davam etdirir. Layihə "Məktəblilərin "soft skills" – təməl bacarıqları ilə tanış edilməsi tədbirləri" adlanır. Layihə 1 ay müddətində onlayn formatda icra ediləcək. Layihənin əsas ideyası müxtəlif məktəblərdən olan şagirdləri onlayn formatda 21-ci əsrin vərdişləri olan yumşaq vərdişlərlə ("soft skills") – təməl bacarıqlarla tanış etməkdir. Tədbir ZOOM platfforması üzərindən aparılacaqdır.

Müasir karyera inkişafına dair məqalələrdə "sərt bacarıqlar" və "yumşaq bacarıqlar" kimi terminlərə tez-tez rast gəlirik. Bu bacarıqlar müasir əmək bazarında vacibdir. Gəncləri bu bacarıqlara məktəb illərindən hazırlamaq lazımdır. Ənənəvi məktəb təhsili bu məsələlərin həllini nəzərdə tutmur. Bu məqsədlə belə mühüm bacarıqların sistemli öyrədilməsinə, ilkin mərhələdə şagirdlərin bu haqda maarifləndirilməsinə ehtiyac var. Layihə çərçivəsində bu məsələlərə diqqət ediləcəkdir.

# Azərbaycanın ən sürətli şəbəkəsi indi Xankəndi şəhərində

Bakcell şirkəti şəbəkəsini Xankəndi şəhərində uğurla istifadəyə verib. Şirkətdən verilən məlumata əsasən, Bakcell-in şəbəkəsi Ağdərə və Xocalı da artıq fəaliyyətdədir. Bununla da, şirkətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında quraşdırılmış baza stansiyalarının sayı 120-dən yuxarıya çatdırılıb. Burada quraşdırılmış baza stansiyaları ilə Bakcell şirkəti Qarabağ bölgəsində ən müasir səs texnologiyası olan VoLTE xidmətini və ölkənin ən sürətli mobil internet şəbəkəsini öz abonetlərinin ixtiyarına verib. Bakcell şirkəti Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda zəruri infrastrukturun qurulması istiqamətində, eləcə də ən son texnologiyaların bu bölgəyə gətirilməsində genişmiqyaslı fəaliyyətini daha da gücləndirəcəkdir.



# Onun fəaliyyəti neftçilərin gənc nəsilləri üçün əsl həyat məktəbidir

**Heydər Əliyev**



96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə Prezident İlham Əliyevin imzaladığı sərəncamla Azərbaycanda neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Xoşbəxt Yusifzadəyə Heydər Əliyev Mükafatı verildi. Prezident İlham Əliyev şəxsən özü bu Mükafatı akademik Xoşbəxt Yusifzadəyə təqdim etdi. Prezident İlham Əliyev: - Xoşbəxt müəllimdə Azərbaycan dövlətinin və o vaxtkı Sovet İttifaqının, demək olar ki, bütün mükafatları var və buna öz əməyi ilə layiq görülüb. İndi təkcə bu mükafat qalmışdı, bunu da bu gün təqdim edəcəyik. Azərbaycanda elə bir adam yoxdur ki, Xoşbəxt müəllimi sevməsin, ona hörmət göstərməsin. O, neftçilərin simvoludur. O, ən təcrübəli, bilikli, qayğıkeş, əsl Azərbaycan ziyalısıdır, Azərbaycan geoloqudur, Azərbaycan neftçisidir. Biz Xoşbəxt müəllimlə fəxr edirik. Mükafata görə təşəkkürünü





# Xoşbəxt Bağı oğlu Yusifzadə

***Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli neftçi alim və geoloq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, respublika dövlət mükafatları və Heydər Əliyev Mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Xoşbəxt Bağı oğlu Yusifzadə 2023-cü il oktyabrın 3-də ömrünün 94-cü ilində vəfat etmişdir.***



Xoşbəxt Yusifzadə 1930-cu il yanvarın 14-də Bakı şəhərinin Pirşağı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1947–1952-ci illərdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı fakültəsində dağ mühəndisi-geoloq ixtisası üzrə ali təhsil almışdır.

Xoşbəxt Yusifzadə 1960-cı ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 2005-ci ildə professor elmi adını almış, 2007-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Əmək fəaliyyətinə 1952-ci ildə SSRİ Neft Sənayesi Nazirliyinin Layihə İnstitutunun Bakı filialında mühəndis-geoloq kimi başlayan Xoşbəxt Yusifzadə 1954-cü ilədək "Dənizneft" Birliyində geoloji şöbə rəisinin müavini və "Azneft" İstehsalat Birliyində böyük geoloq, 1954–1963-cü illərdə indiki "Neft Daşları" Neft və Qazçıxarma İdarəsində böyük geoloq, baş geoloq və rəis vəzifələrində işləmiş, 1963–1970-ci illərdə "Başdənizneft" İdarəsində şöbə rəisi, 1970–1992-ci illərdə isə "Xəzərdənizneft" Birliyində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır.

Xoşbəxt Yusifzadə 1992-ci ilin may ayından "Azərineft" Dövlət Konserninin birinci vitse-prezidenti olmuş, həmin ilin noyabrından ömrünün sonunadək Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində prezidentin müşaviri, vitse-prezident və birinci vitse-prezident vəzifələrini tutmuşdur.

Akademik Xoşbəxt Yusifzadə Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmış şəxsiyyətlərdəndir. Xəzərdə genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla aparılmasında və dənizin zəngin potensialının üzə çıxarılmasında onun müstəsna xidmətləri vardır. Alimin bilavasitə rəhbərliyi və iştirakı ilə 20-dən artıq neft və qaz yatağı, o cümlədən "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf edilərək istismara verilmişdir. Həmin yataqların kəşfi ölkəmizin neft strategiyasının milli mənafelərə uyğun gerçəkləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Neft-qaz geologiyası üzrə səriştəli mütəxəssis olan Xoşbəxt Yusifzadə uzun illər ərzində topladığı zəngin təcrübəsini neft sənayesi strukturlarında məsul vəzifələrdə çalışarkən öz təşkilatçılıq bacarığı ilə ahəngdar şəkildə birləşdirirdi.

Xoşbəxt Yusifzadə eyni zamanda neft və qaz sənayesinin aktual problemlərinin həlli, neft-qaz hasilatının inkişafı və geofiziki axtarış üsullarının təkmilləşdirilməsi sahəsində fundamental araşdırmaların müəllifi kimi tanınmışdır. Onun elmlə istehsalatın sıx bağlılığını əyani təcəssüm etdirən tədqiqatları Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının işlənməsi zamanı elmi metodların tətbiqində xüsusi rol oynamışdır. Xoşbəxt Yusifzadənin apardığı tədqiqatların nəticələri onun 200-ə yaxın elmi əsərində öz əksini tapmışdır. *Alimin neft emalı sənayesində ixtiraları respublika iqtisadiyyatına böyük səmərə gətirmiş, karbohidrogen ehtiyatlarının həcmi ilə bağlı hesablamaları həmişə özünü doğruldaraq, ona həmkarları arasında nüfuz qazandırmışdır.*

Xoşbəxt Yusifzadənin Azərbaycanın neft-qaz sənayesinin inkişafında əvəzsiz xidmətləri və çoxillik səmərəli fəaliyyəti daim yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycanın ali mükafatları – "Heydər Əliyev", "İstiqlal", "Şöhrət", "Şərəf", 1-ci dərəcəli "Əmək" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmiş, "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.

Görkəmli neftçi-alim və geoloq, səmimi və təvazökar insan Xoşbəxt Bağı oğlu Yusifzadənin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır. Allah rəhmət eləsin!

*İlham Əliyev*
*Mehriban Əliyeva*
*Əli Əsədov*
*Sahibə Qafarova*
*Samir Nuriyev*
*Eldar Əzizov*
*Şahmar Mövsümov*
*Fərəh Əliyeva*
*Mikayıl Cabbarov*
*Pərviz Şahbazov*
*Emin Əmrullayev*
*Rövşən Nəcəf*
*İsa Həbibbəyli*
*Akif Əlizadə*
*İbrahim Quliyev*

Xoşbəxt Yusifzadənin Azərbaycanın bütün dövrlərdə neft sənayesinin inkişafında böyük əməyi var. Xoşbəxt Yusifzadə bizim neft tariximizdə xüsusi bir səhifə, onun keçdiyi həyat yolu və gördüyü işlər isə ayrıca bir mərhələdir. Xoşbəxt Yusifzadə Xəzər dənizində genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla aparılmasında və onun zəngin potensialının üzə çıxarılmasında müstəsna xidmətlər göstərmiş, Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmışdır. Xoşbəxt Yusifzadənin iştirakı və rəhbərliyi ilə 20-dən artıq neftqaz yatağı kəşf edilib istismara verilmişdir. Müstəqil Azərbaycanın yeni neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində onun xüsusi xidmətləri olmuşdur. Geoloq-alimin neft və qaz sənayesinin aktual problemlərinin həllinə dair araşdırmaları layiqincə qiymətləndirilmişdir. *Akademik Xoşbəxt Yusifzadə şərəfli, başqalarına örnək olacaq qədər də çox maraqlı ömür yolu keçib. Hətta bu ömrün ən maraqlı anlarını, ən gözəl xatirələrini müəllifi olduğu "Ömrümün illəri və izləri" kitabında həkk edib. Kitab 2010-cu ildə işıq üzü görüb. Biz Xoşbəxt müəllimin həmin kitaba salmadığı, 2019-cu ildə baş vermiş və bu gün xoş xatirəyə çevrilmiş bir hadisəni, daha doğrusu, Xoşbəxt müəllimin dövlət başçısı ilə dialoqunu yada salmaq istərdik.* "10 may 2019-cu il. Ümummilli lideri Heydər Əliyevin anadan olmasının bildirən Xoşbəxt Yusifzadə: - Çox sürprizlər görmüşdüm, amma bugünkü mükafat mənim üçün lap gözlənilməz oldu. Heydər Əliyev cənablarının anadan olan günündə mənə bu mükafatın verilməsi bir daha onu göstərir ki, doğrudan da, mən xoşbəxt adamam. Ötən 67 ildə neft sənayesində nəyə nail olmuşamsa, hamısını Heydər Əliyev cənablarının rəhbərliyi altında əldə etmişəm. Cənab Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə təkcə mənə yox, bütün neftçilərə, neft sənayesinə böyük qayğı göstərib. Hamınız bilirsiniz ki, Ulu Öndər yenidən hakimiyyətə gələndə respublikada iqtisadi vəziyyət çox ağır idi və onu tez bir zamanda düzəltmək mümkün deyildi. Ancaq cənab Heydər Əliyev bilirdi ki, Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün neft sənayesini inkişaf etdirmək lazımdır. Odur ki, bütün gücünü neft sənayesinə yönəltdi. Prezident İlham Əliyev burada "Əsrin müqaviləsi"ndən danışdı. Bu il "Əsrin müqaviləsi"nin 25 ili tamam olacaq. Bu müqavilə heç də asan başa gəlməyib, 1994-cü ildə biz ay yarım Hyustonda olduq, müqaviləyə istəyimizə uyğun qol çəkdirmək üçün çox əzablar çəkdik. Bu müqavilə həqiqətən Heydər Əliyevin şah əsəridir. Bu müqavilə ilə bağlı üç məqamı qeyd etmək istəyirəm. Birincisi odur ki, bu müqavilə imzalanandan sonra bütün dövlətlər, bütün şirkətlər başa düşdülər ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar. Heç də təsadüfi deyil ki, bundan sonra 34 müqavilə də imzalandı. İkincisi, "Əsrin müqaviləsi"nin ən böyük əhəmiyyəti o oldu ki, 1997-ci ildə Azərbaycanda neft hasilatının səviyyəsi 9 milyon tona, 2010-cu ildə isə 51 milyon tona çatdı. Mən onu demək istəyirəm ki, bütün bunların hamısı Heydər Əliyevin xidmətlərinin nəticəsidir. Bu günə qədər "Azəri-Çıraq-Günəşli" yatağından 481 milyon ton neft hasil olunub ki, bunun da 279 milyon tonu mənfəət neftidir. Həmin o mənfəət neftidir ki, Azərbaycanın bugünkü inkişafını təmin edib. *Ulu Öndərin ikinci şah əsəri Bakı-Tbilisi-Ceyhan neft kəməri oldu. Mən rəqəmlər söyləmək istəyirəm, Azərbaycandan xaricə nəql olunan 503 milyon ton neftin 383 milyon tonu Bakı-Tbilisi-Ceyhan kəməri ilə daşınıb. Əgər bu kəmər olmasaydı, bu neft xaricə necə çıxarıla bilərdi? "Şahdəniz" Heydər Əliyevin üçüncü böyük əsəridir. "Şahdəniz"ə də mane olanlar var idi. Amma cənab Heydər Əliyevin rəhbərliyi ilə bu layihə də həyata keçdi. İndi onun bəhrəsini biz hər yerdə görürük.* Dahi Heydər Əliyevin yolunu indi cənab Prezident İlham Əliyev davam etdirir. Heydər Əliyev cənablarının əsasını qoyduğu strategiyanı cənab İlham Əliyev çox uğurla davam etdirir. Bu gün Azərbaycanın nailiyyətlərini saymaqla qurtarmaq olmaz. Necə deyərlər, 10-15 il Azərbaycanda olmayan adam gəlib görsə tanımaz. Təkcə Bakı deyil, bütün rayonlar müasirləşib. Nə qədər yollar çəkilib, nə qədər məktəblər, nə qədər tibb müəssisələri tikilib. Qısa bir vaxtda bu qədər işin görülməsi, doğrudan da, böyük nailiyyətdir. Elə neft sənayesinin özü də çox inkişaf edib. Cənub Qaz Dəhlizi, TANAP, STAR neft emalı zavodu, Sumqayıtda yeni zavodlar neft sənayesində əldə olunan nailiyyətlərdir. Bunların hamısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilib. Cənab İlham Əliyev neft sənayesinin çətinliklərini çox yaxşı bilir, çünki 10 il bizimlə çiyin-çiyinə çalışıb. Buna görə də o, neftçilərə həmişə diqqət və qayğı ilə yanaşır. Mən həm də ona görə xoşbəxtəm ki, neftimizin həm milyardıncı, həm də iki milyardıncı tonunun çıxarılmasında iştirak etmişəm və bu gün artıq üçüncü milyard ton neftin çıxarılmasında gənc həmkarlarımla birlikdə çalışıram. İllərimiz bizim müdriklik xəzinəmizdir"...

* * * *

***Bu gün Azərbaycanın neft salnaməsinin canlı əfsanəsi, böyük neftçi alim Xoşbəxt Yusifzadə ömrünün 94-cü ilində vəfat etmişdir. Bu, ictimaiyyətimiz, elmimiz, neft sənayemiz üçün böyük itkidir. O böyük və şərəfli ömrünün 68 ilini Azərbaycanın neft sənayesinə həsr etmiş, zəngin neft yataqlarının kəşf edilməsi, işlənməsi üçün var qüvvəsi ilə çalışmış və buna nail olmuşdur. Xoşbəxt müəllimi Xəzər dənizində karbohidrogen yataqlarının kəşfiyyatı və işlənilməsinin patriarxlarından biri adlandırırlar. Həm bir milyardıncı, həm də iki milyardıncı ton Azərbaycan neftinin çıxarılmasında iştirak etdiyinə görə özünü xoşbəxt sayırdı Xoşbəxt müəllim. Bu gün biz akademik Xoşbəxt Yusifzadənin timsalında dünya şöhrətli dəyərli neftçi alimimizi, işıqlı ziyalımızı, təvazökar bir insanı itirdik. Onun gördüyü işlər daim xatırlanacaq, xoş xatirələri hər zaman qəlbimizdə yaşayacaq. Allah ona rəhmət eləsin!***

**Akademik Ziyad Səmədzadə**

# “ARASH MEDICAL COMPANY” QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Torpaq, tikili və avadanlıqlar** | **4,371,571** |
| **Qeyri-maddi aktivlər** | **0.00** |
| **Təxirə salınmış vergi aktivləri** | |
| **Uzunmüddətli debitor borcları** | |
| **Uzunmüddətli maliyyə aktivləri** | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **553,200** |
| **Sair aktivlər** | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **4,924,771** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Debitor borcları:** | **10,715,878** |
| alıcılar və sifarişçilərlə hesablaşmalar | 10,715,878 |
| vergilərlə bağlı hesablaşmalar | |
| asılı təşkilatlar üzrə | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **3,830,447** |
| kassa | 245,690 |
| hesablaşma hesabı | 417,027 |
| valyuta hesabı | 3,125,730 |
| digər hesablarda olan pul və pul ekvivalentləri | 42,000 |
| **Mal və material:** | **36,648,382** |
| mal | 36,648,382 |
| xammal və material | |
| azqiymətli və tezköhnələn əşyalar | |
| **Sair qısamüddətli aktivlər:** | **6,878,127** |
| Verilmiş avanslar | 6,878,127 |
| gələcək hesabat dövrlərinin xərcləri | |
| təhtəl hesablar | |
| **Sair aktivlər** | **1,347,435** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **59,420,269** |
| **CƏMİ AKTİVLƏR** | **64,345,040** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I. KAPİTAL** | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **2,000** |
| **Emissiya gəliri** | |
| **Kapital ehtiyatları:** | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | |
| xüsusi məqsədli maliyyələşmələr | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **11,158,641** |
| hesabat dövründə xalis mənfəət (zərər) | 3,864,994 |
| mənfəət (zərər) üzrə düzəlişlər | |
| keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət/(məcmu zərər) | 8,057,296 |
| mənfəətin digər istifadəsi | (763,649) |
| elan edilmiş dividendlər | |
| **CƏMİ KAPİTAL** | **11,160,641** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Sığorta ehtiyatları:** | |
| həyat sığortası sahəsi üzrə | |
| qeyri-həyat sığortası üzrə | |
| **Kreditor borcları:** | |
| əməyin ödənilməsi üzrə | |
| büdcə üzrə | |
| digər məcburi ödənişlər üzrə | |
| asılı təşkilatlar üzrə | |
| sair kreditorlar | |
| bank kreditləri üzrə | |
| **Sair uzunmüddətli öhdəliklər:** | **1,801,587** |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | 1,801,587 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair öhdəliklər** | **35,278,463** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **37,080,050** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **1,046,332** |
| **Kreditor borcları:** | **15,058,017** |
| malsatan və podratçılarla hesablaşmalar | 15,058,017 |
| əməyin ödənilməsi üzrə | |
| Təhtəlhesab şəxslər üzrə | |
| digər məcburi ödənişlər üzrə | |
| sair kreditorlar | |
| **Sair qısamüddətli öhdəliklər:** | |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair öhdəliklər** | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **16,104,349** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **53,184,399** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **64,345,040** |

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | 01 yanvar 2022-ci il tarixdən 31 dekabr 2022-ci il tarixinədək olan dövr üzrə |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **35,391,440** |
| İşlərin görülməsindən və malların satışından | 35,391,440 |
| **Amortizasiya olunan əsas vəsaitlərin təqdim edilməsindən gəlirlər** | **11,017** |
| **Sair gəlirlər** | |
| **Xarici valyutaların manata nisbətən məzənnəsinin dəyişməsindən yaranan fərq** | **(252,331)** |
| **CƏMİ GƏLİRLƏR** | **35,150,126** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **(29,087,696)** |
| Əməyin ödənilməsi üzrə xərclər | (965,100) |
| Sosial sığorta və təminat üzrə xərclər | (184,839) |
| Malın dəyəri | (25,209,910) |
| İcarə ödənişləri | (161,316) |
| Ezamiyyə xərcləri | (14,230) |
| Kommunal xərcləri | (26,089) |
| Rabitə xərcləri | (17,310) |
| Bank xidmətləri üzrə xərclər | (79,184) |
| Reklam xərcləri | (5,215) |
| Amortizasiya ayrılmaları və silinmiş ƏV dəyəri | (1,158,121) |
| Təqdim olunmuş əsas vəsaitin dəyəri | (5,631) |
| Sığorta üzrə xərclər | (11,824) |
| Gəlirdən çıxılan vergilər | (49,321) |
| Yanacaq xərcləri | (96,666) |
| Nəqliyyat xərcləri | (1,070,269) |
| Təmir xərcləri | (32,671) |
| **İşlərin aparılması xərcləri** | **(545,485)** |
| **Sair xərclər** | **(685,702)** |
| **CƏMİ XƏRCLƏR** | **(30,318,883)** |
| **Maliyyə mənfəəti (zərəri)** | **4,831,243** |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **4,831,243** |
| **Mənfəət vergisi** | **(966,249)** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **3,864,994** |

| ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ: | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|
| Mənfəət vergisindən əvvəlki gəlir | 4,831,243 |
| Əmlak, tikili və avadanlıqların amortizasiyası | 1,156,792 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 1,329 |
| Təqdim edilmiş əsas vəsaitlərin | 5,631 |
| Xarici valyuta mübadiləsi üzrə | |
| **Əməliyyat aktivləri və öhdəliklərində** | **5,994,995** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | |
| **Əməliyyat aktivlərində (artma)/azalma:** | |
| Cari vergi öhdəliklərində | (966,249) |
| Mal-material ehtiyatları | 396,617 |
| Debitor borcları və alınacaq digər vəsaitlər | (6,281,176) |
| Ödənilmiş avanslar | 619,121 |
| Digər aktivlər | (948,297) |
| Təsisçilərlə hesablaşmalar | (553,200) |
| **Əməliyyat öhdəklirərində artma/(azalma):** | |
| Alınmış avanslar | (519,658) |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | (849,154) |
| Ödəniləcək vergilər | 476,726 |
| Digər öhdəliklər | 1,201,776 |
| **Əməliyyat fəaliyyətində yönəldilmiş xalis pul vəsaitləri** | **(7,423,494)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | |
| Əmlak, tikili və avadanlıqlar üzrə ödənişlər | (41,343) |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | |
| Əmlak və avadanlıqların silinməsindən daxilolmalar | |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(41,343)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | |
| Ödənilmiş dividendlər | |
| Mənfəətdən digər istifadə | (763,649) |
| **Maliyyələşdirmə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(763,649)** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALETLƏRİNDƏ XALİS AZALMA | **2,233,491** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | **6,063,938** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | **3,830,447** |

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Kapital ehtiyatları | Cəmi Kapital |
|---|---|---|---|---|
| 31 dekabr 2021-ci il tarixə qalıq | 2,000 | 8,057,296 | -- | 8,059,296 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | -- | -- | -- | -- |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -- | 3,864,994 | -- | -- |
| Mülkiyyətçilərin kapital qoyuluşları | -- | -- | -- | -- |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) və mənfəətin istifadəsi | -- | (763,649) | -- | -- |
| 31 dekabr 2022-ci il tarixə qalıq | 2,000 | 11,158,641 | -- | 11,160,641 |

# Qarabağdakı kredit təşkilatının kapitalı 2 dəfə artırılıb

Azərbaycanda lisenziya ilə kredit bazarında fəaliyyətdə olan “Hikmət-Ziya Kredit İttifaqı” Məhdud Məsuliyyətli Cəmiyyətinin nizamnamə kapitalı artırılıb. Banker.az xəbər verir ki, “Hikmət-Ziya Kredit İttifaqı”nın nizamnamə kapitalı 5 400 manat və ya 2 dəfədən çox artırılmaqla 10 200 manat təşkil edib. Xatırladaq ki, AZ1924, “Hikmət-Ziya Kredit İttifaqı” MMC 2007-ci ildə təsis edilib və Füzuli rayonu, Horadiz şəhərində dövlət qeydiyyatına alınıb.

# AAYDA son həftə ərzində görülən işlər barədə məlumat yayıb

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən sentyabrın 26-dan oktyabrın 2-dək olan müddətdə yol tikintisi və təmiri sahəsində görülən işlər barədə məlumat açıqlanıb.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, həmin müddət ərzində M-1 magistral avtomobil yolunun bir hissəsində aparılan təmir-bərpa işləri yekunlaşıb. Piyada keçidində aparılan təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Eyni zamanda, Qudyalçay üzərində yeni körpünün inşasına start verilib.

M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun paytaxt Bakı istiqamətində olan 51-61-ci kilometrlik hissəsində təmir işlərinə başlanılıb.

# Dövlət ehtiyatları üzrə xərclər necə maliyyələşdiriləcək?

Dövlət ehtiyatlarının yaradılması və idarəedilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsi qaydaları müəyyənləşdirilir.

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin oktyabrın 3-də keçirilən iclasının gündəliyinə daxil edilən yeni qanun layihəsinin 8-ci maddəsində bildirilir.

“Dövlət ehtiyatları haqqında” qanun layihəsinə əsasən dövlət ehtiyatlarının yaradılması və idarə edilməsi ilə bağlı xərclər dövlət büdcəsinin vəsaiti, dövlət ehtiyatlarının buraxılması nəticəsində əldə edilmiş vəsait, qanunla qadağan edilməyən digər mənbələrdən əldə edilən vəsait hesabına maliyyələşdirilir.

# “S&P Global Ratings" yenidən Sahibkarlığın İnkişafı Fonduna yüksək reytinq verib

"S&P Global Ratings" reytinq agentliyi Sahibkarlığın İnkişafı Fonduna (SİF) növbəti dəfə yüksək reytinq verib.

Fonddan bildirilib ki, qlobal agentlik SİF-in uzun və qısamüddətli kredit reytinqini "BB-/B" səviyyəsində təsdiqləyib və yaxın gələcəkdə SİF-in reytinqinin "stabil" olaraq qalacağını proqnozlaşdırır. Qlobal reytinq agentliyinin yaydığı məlumata görə, SİF-in ölkə iqtisadiyyatının inkişafında rolu, dövlət və özəl sektor arasında əlaqələndirici mövqeyi reytinq agentliyi tərəfindən müsbət qiymətləndirilib. Fondun yüksək reytinq almasına təsir göstərən başlıca faktorlar isə güclü kapital mövqeyi və gəlirlilik səviyyəsi olub. Reytinqin alınmasında əsas məqsəd qloballaşan bazarın tələblərinə uyğunlaşmaq, Fondun cari və potensial tərəfdaşları arasında etibarlılığını artırmaq və gələcəkdə xarici maliyyə vəsaitlərinin cəlb edilməsi üçün uyğun zəmin yaratmaqdır.

# Taksilərlə bağlı yeni qaydalar qüvvəyə minib

Oktyabrın 1-dən avtomobil nəqliyyatı vasitəsilə sərnişin və yükdaşımaları ilə məşğul olmaq istəyən hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq icazələr əsasında fəaliyyət göstərməlidir. İcazələr Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən 7 il müddətinə verilir. Qanunvericiliyin tələbinə əsasən ölkə daxilində qeyri-müntəzəm sərnişindaşıma, eləcə də yükdaşıma ilə məşğul olan şəxslərə buraxılış vəsiqəsi ödənişsiz veriləcək.

Qaydalara əməl etməyənlər üçün cəzalar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir. Bunu Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən bildiriblər. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanuna əsasən, eləcə də taksi minik avtomobili ilə sərnişindaşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatı Nazirlər Kabineti tərəfindən təsdiq edilən tələblərə uyğun olmalıdır.

Nazirlər Kabinetinin 4 sentyabr 2023-cü il tarixli Sərəncamı ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələbləri, həmçinin taksi sifarişi operatorları tərəfindən hər bir taksi sifarişi üzrə real vaxt rejimində ötürülən adsızlaşdırılmış məlumatların, o cümlədən sürücünün iş və istirahət rejimlərinə riayət olunmasına nəzarət məqsədilə sürücü barədə məlumatların siyahısı ilə bağlı təklifləri 4 ay müddətində Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

Taksi sifarişi operatoru fəaliyyətinə icazə, Azərbaycanla xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi, ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsi isə artıq elektron qaydada AYNA-ya müraciət edilməklə alınmalıdır. “Dövlət rüsumu haqqında” Qanunda yeniliklərlə taksi minik avtomobilləri ilə sərnişindaşımalarına buraxılış vəsiqəsinin verilməsinə görə 125 manat, hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsinə görə 25 manat, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsinə görə 3000 manat dövlət rüsumu müəyyən olunur. Buraxılış vəsiqəsi olmadan taksi minik avtomobilləri ilə sərnişin daşınmasının təşkilinə görə vəzifəli şəxslərə 200 manat, hüquqi şəxslərə 1000 manat, buraxılış kartı olmadan taksi minik avtomobilləri ilə sərnişin daşınmasına görə 50 manat cərimə düşür. Əməllərin təkrar törədilməsi halında cərimələr artır. İcazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərilməsinə görə vəzifəli şəxslər 10 min manat, hüquqi şəxslər 40 min manat cərimələnir. Cəzalar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı hesab edir ki, yeni qanun taksi şirkətlərinin və sürücülərin məsuliyyətini artıracaq. Onun sözlərinə görə, fərdi taksi fəaliyyəti ilə məşğul olan şəxslər də taksometr alıb-almamaqda azaddır. Elməddin Muradlı yeni qanunun tariflərin artmasına səbəb olacağı ilə bağlı yayılan məlumatlara da aydınlıq gətirib: ***“Artıq qiymət məsələsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzarətindədir. Qurum müəyyən edib ki, taksi sifarişi üçün minimal qiymət 2 manat 50 qəpikdir. Təbii ki, şirkətlər bundan yüksək qiyməti də özləri xidmət keyfiyyətinə uyğun müəyyən edə bilər. Amma bu, şirkətlərə sui-istifadəyə şərait yaratmamalıdır. Yəni, aşağı qiymətə sürücüləri istismar etmək olmaz. Göründüyü kimi, hazırda Azərbaycanda heç bir şirkətə qarşı sanksiya tətbiq edilmir, onlar ölkədən qovulmur. Sadəcə ölkədə taksi fəaliyyəti ilə bağlı yaranan xaosun başında bu şirkətlər dayanmışdı və onun qarşısını da almaq üçün müəyyən addımlar atılmalı idi. Addım atılmazdan əvvəl araşdırıldı, məlum oldu ki, qanunvericilik bazası möhkəm deyil. Bu şirkətlər də ondan istifadə edir. Bu səbəbdən də qanunvericilikdə dəyişikliklər edildi və onun bir hissəsi oktyabrdan, digər hissəsi isə 2024-cü il yanvarın 1-dən tətbiq ediləcək”***.

# Qənirə Ələsgər qızı Paşayeva

*Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Tanınmış ictimai xadim və jurnalist, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Ələsgər qızı Paşayeva 2023-cü il sentyabrın 28-də ömrünün 49-cu ilində vəfat etmişdir.*

Qənirə Paşayeva 1975-ci il martın 24-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. O, orta məktəbi bitirərək 1991–1998-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin pediatriya fakültəsində oxumuş, daha sonralar Bakı Dövlət Universitetində beynəlxalq hüquq ixtisası üzrə təhsil almış, 2010-cu ildə isə dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

*Əmək fəaliyyətinə 1998-ci ildən "ANS" televiziya şirkətinin Xəbərlər xidmətində başlayan Qənirə Paşayeva həmin şirkətdə 2005-ci ilədək müxtəlif vəzifələrdə çalışmış, 2005–2012-ci illərdə Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri olmuşdur.*

Qənirə Paşayeva üçüncü, dördüncü, beşinci və altıncı çağırışlar Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. O, Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Asiya Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin və Azərbaycan–Pakistan parlamentlərarası əlaqələri üzrə işçi qrupun rəhbəri, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, eləcə də Avstraliya və Yeni Ze-



landiya, Bosniya və Herseqovina, Fransa, Gürcüstan, İndoneziya, İraq, İspaniya, İtaliya, Koreya, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Malayziya, Mərakeş, Misir, Moldova, Özbəkistan, Rumıniya, Şimali Makedoniya, Tailand, Türkiyə, Türkmənistan, Vyetnam və Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qrupların üzvü olmuşdur. Qənirə Paşayeva həmçinin Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü və Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyinin sədri idi.

Qənirə Paşayeva zəngin ictimai-siyasi fəaliyyəti dövründə çalışdığı bütün sahələrdə dərin məsuliyyəti və insanlara münasibətdə yüksək həssaslığı ilə böyük hörmət və rəğbət qazanmışdır. Milli dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nailiyyətlərin əldə olunmasında onun təqdirəlayiq xidmətləri vardır. O, Milli Məclisin Mədəniyyət komitəsinin sədri kimi ölkədə mədəniyyət sahəsində dövlət siyasətinin uğurla gerçəkləşdirilməsində yaxından iştirak etmişdir. *Vətənpərvərliyi, milli dövlətçiliyə sədaqəti və xalqımızın mədəni-mənəvi dəyərlərinə xüsusi ehtiramı Qənirə Paşayevaya Azərbaycan cəmiyyətində həqiqi nüfuz qazandırmışdır. Maarifçilik və xeyriyyəçilik fəaliyyəti onun ali insani keyfiyyətlərini xarakterizə edən başlıca cəhətlər idi.*

Qənirə Paşayevanın aktual mövzularda qələmə aldığı çoxsaylı elmi-kütləvi və publisistik məqalələr, müəllifi olduğu ssenarilər diqqət və maraqla qarşılanmışdır. Qənirə Paşayeva Azərbaycanın haqq səsinin, Qarabağ həqiqətlərinin yüksək kürsülərdən dünyaya çatdırılması üçün var qüvvəsini səfərbər etmiş, türk xalqları arasında birlik və qardaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi işinə dəyərli töhfələr vermişdir.

Tanınmış ictimai xadim, xeyirxah və səmimi insan Qənirə Ələsgər qızı Paşayevanın əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Əli Əsədov**
**Sahibə Qafarova**
**Samir Nuriyev**
**Eldar Əzizov**
**Ədalət Vəliyev**
**Fərəh Əliyeva**
**Adil Kərimli**
**Eldar Quliyev**
**Hicran Hüseynova**
**Əhliman Əmiraslanov**
**Eldar İbrahimov**
**Səməd Seyidov**
**Rafael Hüseynov**

# Ermənistan Roma Statutunu ratifikasiya edib

Ermənistan parlamenti Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya edib.

Trend erməni KİV-ə istinadən xəbər verir ki, qərar Ermənistan parlamentində müzakirə edilərək qəbul edilib.



Qeyd edək ki, Roma Statutunun qəbul edilməsi ilə Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarının icrası İrəvan üçün məcburi olub.

Xatırladaq ki, Haaqa tribunalı Rusiya Prezidenti Vladimir Putinin həbsinə dair qərar çıxarıb. Artıq Roma Statutunun ratifikasiyası ilə Vladimir Putin Ermənistan ərazisinə səfər edərsə, həbs edilməlidir.

# Türkiyə Ermənistandakı Metsamor AES-in bağlanmasını tələb edib



Türkiyə Böyük Millət Məclisinin iclasında Beynəlxalq Atom Enerjisi Agentliyinə (BAEA) Ermenistanda yerləşən Metsamor Atom Elektrik Stansiyası ilə bağlı tədbir görülməsi tələbi ilə müraciət edilib.

Türkiyə parlamentinin iclasında bildirilib ki, həmin atom elektrik stansiyası Türkiyə sərhədlərindən 16 km aralıda yerləşir.

Məlumata əsasən, vətəndaşlardan parlamentə daxil olan ərizə və şikayətləri təhlil edən Türkiyə Böyük Millət Məclisinin Müraciət Komissiyasına atom elektrik stansiyasının yaratdığı risklərə qarşı tədbir görülməsi tələbi daxil olub.

Komissiya bu məsələ ilə bağlı nazirlik, qurum və təşkilatlar tərəfindən verilən məlumatlar əsasında müraciətə cavab verib. Parlament komissiyasının cavabında bildirilib ki, radiasiya ilə bağlı fövqəladə hallar ilə bağlı regional seminar keçirilib, onun məqsədi İğdır şəhərinin sakinləri üçün məlumatlandırma tədbirləri keçirməklə əhalinin maarifləndirilməsi olub.

Türkiyə BMM-dən verilən cavabda bildirilir ki, İğdır şəhərinin sərhəd kəndlərində məlumatlandırma tədbirləri keçirilib, Səhiyyə Nazirliyi ilə razılaşdırılaraq yod həbləri verilib, onların paylanması və lazımi yerlərdə saxlanması təmin edilib. Həm də radiasiya qəzası zamanı yerli səviyyədə tədbirlər görülür.

Türkiyə Xarici İşlər Nazirliyi vurğulayıb ki, BAEA əməkdaşları vaxtaşırı Ermənistana səfərlər və yoxlamalar aparır və hər bir təhlükəsizlik missiyasından sonra ətraflı hesabat tərtib edilir.

# Terrorçular təmizlənənə qədər mübarizəmiz davam edəcək



Bunu Türkiyənin müdafiə naziri Yaşar Gülər deyib.

"Türkiyə Daxili İşlər Nazirliyinin qarşısında uğursuz terror cəhdi bir daha göstərdi ki, ölməkdə olan xain terror təşkilatı son mübarizələrini aparır. Hadisə zamanı xəsarət alan polis əməkdaşlarımıza Allahdan şəfa diləyirəm", - deyə o əlavə edib.

Qeyd edək ki, 1 oktyabr tarixində Ankarada saat 09:30 radələrində Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin giriş qapısına avtomobillə gələn iki terrorçu terror aktı törədib. Terrorçulardan biri özünü partladıb, ikincisi zərərsizləşdirilib. Atışma zamanı iki polis əməkdaşı yüngül xəsarət alıb.




**Azəri Light və Brent markalı neftin bir barelinin 28 sentyabr – 4 oktyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

# Türkiyədə inflyasiya 2023-cü ilin ən yüksək səviyyəsinə çatıb

Sentyabrda illik inflyasiya 61,53 faizə yüksəlib. Türkiyə Statistika Təşkilatı (TÜİK) sentyabr ayı inflyasiya məlumatlarını açıqlayıb.

Marja.az Türkiyə Statistika Təşkilatının məlumatına istinadən xəbər verir ki, istehlak qiymətləri indeksi (inflyasiya göstəricisi) senyabrda 61,53 faizə yüksəlib (qiymətlər sentyabr ayında ötən ilin sentyabr ayı ilə müqayisədə 61,53% artıb).

Aylıq inflyasiya isə sentyabrda 4,75 faiz olub (qiymətlər sentyabr ayında avqust ilə müqayisədə 4,75% artıb).

İqtisadçıların proqnozları illik inflyasiyanın 61,9 faiz, aylıq inflyasiyanın 5% olacağı istiqamətlərində idi. İllik baza inflyasiyası sentyabrda 68,93 faiz təşkil edib. Avqustda illik baza inflyasiyası 64,85 faiz olaraq qeydə alınmışdı.



# Litva Ukrayna taxılı üçün dəhliz açacaq



Litva rəsmiləri Ukrayna taxılının Baltik limanlarına tranziti üçün dəhliz barədə razılığa gəlib.

Bu barədə Litvanın xarici işlər naziri Qabrielius Landsberqis "X" (tvitter) sosial şəbəkə hesabında məlumat verib.

Onun sözlərinə görə, taxılın Baltik limanlarına tranziti üçün dəhliz təklifi qəbul edilib.

Bildirilib ki, bu, Ukrayna sərhədində təzyiqi azaldaraq taxılın Afrika və digər ölkələrə tədarükünü artıracaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə və ailəsi Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri
**QƏNİRƏ PAŞAYEVANIN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə İsrafil Əliyevə qardaşı
**RƏHİM ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professorlar Fuad Hacızadə və Elşən Hacızadə İsrafil Əliyevə qardaşı
**RƏHİM ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Rəsul Balayev İsrafil Əliyevə qardaşı
**RƏHİM ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500